# Bu gün «Təbib» qəzetinin 80 yaşı tamam olur!

http://www.amu.edu.az

ATU AMU 1930

# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 21 (1574) 16 dekabr 2013 - cü il Qiyməti 20 qəpik

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır



**• Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasından sonra hər il olduğu kimi, Ulu Öndərin vəfatının onuncu ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allah-Taaladan rəhmət diləyirdilər.**

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət və idarə rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

# Ulu öndərin müəyyənləşdirdiyi siyasət dövlətimizi gələcək nailiyyətlərə doğru aparır

## • Nəsimi rayonunda Ümummilli lider Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib

**• Dekabrın 10-da Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı və Nəsimi rayon İcra Hakimiyyəti Ümummilli lider Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirib. Tədbiri giriş sözü ilə açan Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Nəsib Məhəməliyev bildirib ki, Ümummilli liderimiz Heydər Əliyevin ölməz ideyaları daim Azərbaycanın inkişafına xidmət edəcək.**

Anım mərasimində YAP Nəsimi rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü, millət vəkili Məlahət İbrahimqızı çıxış edərək Ulu öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı misilsiz xidmətlərindən danışıb. M.İbrahımqızı bildirib ki, Azərbaycanın inkişaf və tərəqqisi məhz Ümummilli liderimizin adı ilə bağlıdır: "Azərbaycanın inkişafı geniş vüsət alıb. Bu inkişafın əsas səbəblərindən biri dövlətimizin müstəqil siyasət həyata keçirməsidir".

M.İbrahimqızı qeyd edib ki, geostrateji cəhətdən əhəmiyyətli bölgədə yerləşən Azərbaycan inkişafımızı istəməyən xarici qüvvələrin cəhdlərinə baxmayaraq, öz yolu ilə inamla irəliləyir. Onun sözlərinə görə, bu qətiyyətli siyasət dövlətimizin beynəlxalq müstəvidə nüfuzunu daha da artırır. "Azərbaycanın inkişaf strategiyasının müəllifi Ulu öndər Heydər Əliyevdir. Bu gün Prezident İlham Əliyev bu strategiyanı uğurla həyata keçirir. Artıq başa çatmaqda olan 2013-cü ildə ölkəmiz bir çox uğurlar qazanıb. Hesab edirəm ki, növbəti illərdə nailiyyətlərimiz daha da artacaq. Bütün uğurlarımızın əsasında Heydər Əliyev siyasətinin təntənəsi dayanır" - deyə, YAP Siyasi Şurasının üzvü qeyd edib.

Azərbaycan Tibb Universitetinin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov Ulu öndər Heydər Əliyevin gördüyü işlərin miqyasının çox böyük olduğunu deyib. Ə.Əmiraslanov Ümummilli liderimizin Azərbaycan elminin və təhsilinin himayədarı olduğunu, bu sahədə çalışanlara, xüsusilə, səhiyyə işçilərinə həmişə diqqət və qayğı göstərdiyini xatırladıb. Akademik bildirib ki, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin ölkəmizin dövlət müstəqilliyi bərpa edildikdən sonra iki dəfə ATU-da olması, müəllim və tələbələr qarşısında proqram xarakterli çıxışı və gələcək həkimlərə dəyərli məsləhətlər verməsi universitetin tarixində silinməz izlər qoyub. Ə.Əmiraslanov diqqətə çatdırıb ki, Ulu öndərin səyi nəticəsində 1998-ci ildə ATU-nun 11 mərtəbəli yeni tədris binası tikilib istifadəyə verilib. Azərbaycanda səhiyyənin inkişafı, universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi və ölkəmizdə tibb kadrlarının hazırlanması məhz Ulu öndərin adı ilə bağlıdır. ATU-nun stomatoloji və onkoloji klinikalarının, Ümummilli lider Heydər Əliyevin böyük qayğısı sayəsində yaradıldığını diqqətə çatdıran akademik vurğulayıb ki, Onun layiqli davamçısı Prezident İlham Əliyevin dəstəyi ilə inşa olunmuş universitetin çoxprofilli Tədris Terapevtik və Tədris Cərrahiyyə Klinikaları ən müasir avadanlıqla təchiz olunaraq əhaliyə dünya standartlarına uyğun səviyyədə tibbi xidmət göstərir. Ulu öndərin müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan Ə.Əmiraslanov bildirib ki, bu siyasət dövlətimizi gələcək nailiyyətlərə doğru aparır.



Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, YAP İdarə heyətinin üzvü Eldar İbrahimov Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətinin rəmzi olduğunu vurğulayıb. Müstəqil Azərbaycanın Heydər Əliyevin şah əsəri olduğunu deyən E.İbrahimovun sözlərinə görə, müasir Azərbaycanın inkişafı Heydər Əliyev siyasətinin nəticəsidir.

Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadə isə ölkə iqtisadiyyatının inkişafında Ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətlərindən bəhs edib. Onun sözlərinə görə, Heydər Əliyev zəngin irsinin bundan sonra da dərindən öyrənilməsinə ehtiyac var.

Sonra ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib.

# İlk azərbaycanlı alim-cərrah, akademik Mirəsədulla Mirqasımovun 130 illik yubileyi qeyd olunmuşdur

**◆ Dekabrın 10-da Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti, tanınmış ictimai xadim, ilk azərbaycanlı alim-cərrah, tibb üzrə elmlər doktoru, akademik Mirəsədulla Mirqasımovun 130 illik yubileyi qeyd olunmuşdur.**

**AMEA-nın, Səhiyyə və Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən yubiley mərasiminin iştirakçıları əvvəlcə Fəxri xiyabanda mərhum alimin xatirəsini anmış, məzarı üzərinə gül dəstələri düzmüşlər.**





Sonra tədbir iştirakçıları Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) əsas binasında görkəmli akademikin həyat və yaradıcılığını əks etdirən kitab, jurnal və digər nəşrlərdən ibarət sərgiyə baxmışlar. Sərgidə təqdim olunan "Akademik Mirəsədulla Mirqasımov haqqında xatirələr kitabı" və alimin şəxsi əşyaları maraqla qarşılanmışdır.

Yubiley tədbirində çıxış edən AMEA-nın prezidenti, akademik Akif Əlizadə bildirmişdir ki, M.Mirqasımov elmi-təşkilati, pedaqoji və tibbi-nəzəri istiqamətləri özündə birləşdirən çoxşaxəli fəaliyyəti ilə XX əsrin birinci yarısında Azərbaycan elmi-ictimai düşüncəsinin təşəkkülündə və inkişafında müstəsna rol oynamışdır. 1945-ci ildə, İkinci Dünya müharibəsi bitməmiş ölkədə elmi proseslərin daha mütəşəkkil təşkili, tarix, mədəniyyət və təbiətin daha sistemli öyrənilməsi məqsədilə Azərbaycan Elmlər Akademiyası (AEA) təsis edilmişdir. Akademiklərin ilk yığıncağında tibb sahəsində zəngin elmi təcrübəsi ilə fərqlənən akademik M.Mirqasımov AEA-nın ilk prezidenti seçilmişdir. O vaxtdan indiyədək böyük tarixi inkişaf yolu keçmiş AMEA hazırda özünün 70 illik yubileyinə hazırlaşır.

A.Əlizadə demişdir ki, M.Mirqasımovun şəxsiyyətindəki sanballılıq öz tipoloji əsası etibarilə XX əsrin əvvəllərindəki Azərbaycan milli ziyalı elitasına söykənir. Bu mənada onun da şəxsiyyəti Üzeyir bəy Hacıbəyli, Hüseyn Cavid və Cəfər Cabbarlı kimi milli epoxa ilə sovet epoxasını özündə birləşdirir.

Diqqətə çatdırılmışdır ki, M.Mirqasımovun 130 illik yubileyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il 6 fevral tarixli Sərəncamı əsasında keçirilir. Sərəncama əsasən, yubileylə əlaqədar tədbirlər planı hazırlanmış, akademikin vaxtilə yaşadığı binadakı xatirə lövhəsi yenilənmiş, alimin həyat və yaradıcılığı haqqında filmin çəkilməsi haqqında Nazirlər Kabineti qarşısında vəsatət qaldırılmışdır.

Tədbirdə səhiyyə naziri Oqtay Şirəliyev demişdir ki, M.Mirqasımov Azərbaycanda uroloji xəstəliklər üzrə doktorluq dissertasiyası müdafiə etmiş ilk milli mütəxəssis kimi səhiyyə tariximizdə layiqli və əbədi yer tutur. Hələ 30-cu illərdə görkəmli alim tələbələri ilə birlikdə Azərbaycanda urolitiazın meydana gəlməsi və yayılması, malyariya xəstəliyinin fəsadları, cərrahi müalicəsi və tibb sahəsindəki digər problemlərin həlli ilə ciddi məşğul olmuşdur.

Nazir bildirmişdir ki, Bakıdakı küçələrdən birinə, eləcə də Respublika Klinik Xəstəxanasına akademik M.Mirqasımovun adının verilməsi onun şəxsiyyətinə olan ehtiramın təcəssümüdür.

Tədbirdə çıxış edən təhsil naziri Mikayıl Cabbarov M. Mirqasımovun elmi-pedaqoji fəaliyyətindən danışmışdır. Qeyd etmişdir ki, akademik M.Mirqasımov Bakı Dövlət Universitetində tibb elminin tədrisinə cəlb olunmuş ilk milli kadrlardan biridir. 1930-cu ildə yenicə təşkil olunmuş Tibb İnstitutunda dərslərin rus dili ilə yanaşı, Azərbaycan dilində də tədrisinin qərara alındığını söyləyən nazir o dövrdə milli dərsliklərə ciddi ehtiyac yarandığını xatırlatmışdır. Vurğulamışdır ki, bunu nəzərə alan M.Mirqasımov 1931-ci ildə ilk dəfə Azərbaycan dilində "Ümumi cərrahiyyə" adlı orijinal dərslik hazırlamışdır.

Azərbaycan Tibb Universitetinin rektoru, AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov isə M.Mirqasımovun tibb elmindəki digər xidmətlərindən bəhs etmişdir. Demişdir ki, görkəmli akademik 1929-cu ildə tibb fakültəsi nəzdində təşkil olunmuş "Operativ urologiya" kursunun rəhbəri təyin edilmiş, ölkəmizdə urologiya elminin milli inkişaf tarixinin özül daşlarını qoymuşdur. İkinci Dünya müharibəsi illərində M.Mirqasımov həmkarları ilə birlikdə Azərbaycanda hospital xidmətinə, hərbi-səhra cərrahlığının əsasının qoyulmasına və inkişaf etdirilməsinə mühüm töhfələr vermişdir. O, 28 il fasiləsiz olaraq indiki Azərbaycan Tibb Universitetinin hospital cərrahlığı kafedrasının müdiri vəzifəsində çalışmaqla yüksək ixtisaslı kadrların hazırlanmasında əvəzsiz xidmətlər göstərmiş, institutun maddi-texniki bazasının möhkəmləndirilməsində mühüm rol oynamışdır.

Qeyd edilmişdir ki, M.Mirqasımov Azərbaycan Tibb Universitetində ilk dəfə patoloji anatomiya muzeyini yaratmışdır. Həmin muzey bu gün də fəaliyyət göstərir. Bundan əlavə, M.Mirqasımov 30-dan çox elmlər doktoru yetişdirmişdir. Bu isə onun yaşadığı dövr üçün o qədər də asan məsələ deyildi.

Ə.Əmiraslanov diqqətə çatdırmışdır ki, ilk təhsilini mədrəsədə alan M.Mirqasımov 3 il Odessanın müxtəlif klinikalarında cərrahiyyənin müxtəlif sahələri üzrə təcrübə keçmişdir. Bu gün deyə bilərik ki, Azərbaycanda cərrahiyyənin əsasını Mustafa bəyTopçubaşov və Mirəsədulla Mirqasımov qoymuşlar.

Bildirilmişdir ki, M.Mirqasımov Azərbaycan Tibb Universitetində çalışdığı dövrdə bu elm ocağının nəzdində klinikalarının yaradılması barədə çox düşünmüşdür. Buna nail ola bilməsə də, onun ideyaları bu gün həyata keçmişdir. Artıq Azərbaycan Tibb Universitetinin 4 klinikası fəaliyyət göstərir.

Yubiley mərasimində çıxış edən akademik İsmayıl İbrahimov M.Mirqasımovla bağlı xatirələrini bölüşmüş və görkəmli alimin yüksək insani keyfiyyətlərindən danışmışdır.

Akademik Vasim Məmmədəliyev isə M.Mirqasımovun Şərq ədəbiyyatına dərindən bələd olmasını və Quranı əzbərdən bilməsini diqqətə çatdırmışdır.

Akademik Böyükkişi Ağayev M.Mirqasımovun cərrahiyyə sahəsində apardığı elmi-praktiki işlərin əhəmiyyətindən bəhs etmişdir. Bildirilmişdir ki, onun "Qarın yatalağı" adlı ikicildlik monoqrafiyası hazırda sanballı bir elmi əsər kimi qiymətləndirilməkdədir.

Görkəmli akademikin oğlu Oqtay Mirqasımov atasının xatirəsinə göstərilən yüksək ehtirama görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir.

Tədbirdən sonra M.Mirqasımovun vaxtilə yaşadığı Xaqani, 19 ünvanındakı binada akademikin yeni xatirə lövhəsinin açılışı olmuşdur.

**MƏNSUR**

**◆ Dekabrın 9-da Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının konfrans salonunda Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Biologiya və Tibb Elmləri Bölməsinin (BTEB) fəaliyyətinin nəticələri müzakirə edildi.**

# AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin qurumları illik hesabat verdilər

Tədbir iştirakçıları əvvəlcə foyedə BTEB-in institutlarının ötən il qazandıqları uğurları əks etdirən sərgi ilə tanış oldular.

Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, Milli Məclisin deputatı Əhliman Əmiraslanov iclası açaraq bildirdi ki, Biologiya və Tibb Elmləri Bölməsinin Səhiyyə Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan elmi tədqiqat institutları ilə bir yerdə illik ümumi iclasını keçiririk. Biologiya Bölməsinin Biologiya və Tibb Elmləri Bölməsi adlandırıldığı iki il müddətində aparılan dəyişikliklər haqqında məlumat verən akademik-katib vurğuladı ki, artıq biologiya sahəsi ilə yanaşı, tibb sahəsində elmi-tədqiqat işləri ilə məşğul olan müəssisələrlə, o cümlədən Tibb Universiteti, Həkimləri Təkmilləşdirmə İnstitutu və digər elmi-tədqiqat institutları ilə birgə çalışırıq. Əvvəllər biz hər il bölmələr, bölmənin tərkibində olan institutlar üzrə hesabatları dinləyirdik. Hesabatları dinləyəndən sonra bölmənin akademik-katibi rəyasət heyətində bütövlükdə bölmənin tərkibində olan institutların hesabatını verirdi. Akademiyada olan dəyişiklərdən, reformalardan, islahatlardan biri də ondan ibarətdir ki, rəyasət heyətində bölmələrin akademik-katiblərinin hesabatı olmur. Yalnız ümumi yığıncaqda təkcə akademiya üzrə yox, ölkə üzrə bütün elmi hesabatı akademiyanın prezidenti və baş elmi katibi verir.



Akademik Əhliman Əmiraslanovun giriş nitqindən sonra Botanika İnstitutunun direktoru, biologiya elmləri doktoru Validə Əlizadə, Zoologiya İnstitutunun direktoru,



biologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü İlham Ələkbərov, Fiziologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, biologiya üzrə fəlsəfə doktoru Afiq Qaziyev, Mikrobiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, biologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Pənah Muradov, Mərdəkan Dendrarisinin direktoru, biologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Tofiq Məmmədov, Mərkəzi Nəbatat Bağının elmi işlər üzrə direktor müavini, biologiya üzrə fəlsəfə doktoru Vahid Fərzəliyev, Travmatologiya və Ortopediya İnstitutunun direktoru, professor Vaqif Verdiyev, Həkimləri Təkmilləşdirmə İnstitutunun elmi işlər üzrə prorektoru, tibb üzrə fəlsəfə doktoru Məmmədəli Meybəliyev, Elmi Cərrahiyyə Mərkəzinin direktoru, akademik Böyükkişi Ağayev və Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayevin hesabatları dinlənildi.

Bölməyə daxil olan qurumların illik fəaliyyətlərinə dair hesabatlara münasibətini bildirən akademik Əhliman Əmiraslanov bir il ərzində xeyli işlər görüldüyünü, ancaq əsas hədəfin daha yüksək nəticələr əldə etmək olduğunu söylədi: *"Bu gün elmin qarşısında çox çətin və məsuliyyətli vəzifələr durur. Bütün çıxışlarda, müzakirələrdə bir fikir səslənir ki, elmə ayrılan vəsait azdır. Biz bu məsələləri qabardanda haqlı olaraq deyirlər ki ayrılan vəsaitin müqabilində gördüyünüz işlər, aldığınız nəticələr o qədər də qənaətbəxş deyil. Əgər doğrudan da dövlətdən böyük vəsait almaq istəyiriksə, köhnə sistemlə, köhnə qaydalarla işləməkdən əl çəkməliyik. Etiraf edək ki, alınan nəticələr müasir dövrün tələbatına cavab vermir. Yalnız keçmiş SSRİ-nin tərkibində olmuş respublikaların bəzilərində qalan akademiyanın mövcud sistemi artıq dağılmaq üzrədir, bir çox ölkələrdə ləğv edilibdir. Qonşu Rusiyada sahə akademiyaları böyük akademiyaya birləşdirilibdir. Burada da çox ciddi dəyişikliklər aparılır. Bütün sahələr üzrə vəsaitin qoyulması azalır. Dövlət ayırdığı vəsaitin əsasında yeni nəticələr gözləyir. Bu baxımdan gördüyümüz işləri yüksək qiymətləndirə bilmərik. Hər dəfə yeni avadanlıqların alınması barədə məsələ qaldıran institut direktorları eyni nəticələri təkrarlayırlar. Təbii ki, imkan yarandıqca yeni avadanlıqlar da alınır, 10 il əvvəlki təchizatla bugünkü təchizat arasında çox böyük fərqlər var. Təəssüf ki, alınan avadanlıqlardan da səmərəli istifadə olunmur. Bircə misal çəkim. Bölmənin elmi təşkilatlarının və Azərbaycan Tibb Universitetinin birgə qrantı ilə transmission elektron mikroskopu, ona köməkçi cihaz, avadanlıq və materiallar alınıb. O mikroskopdan yalnız Azərbaycan Tibb Universitetinin əsasən müəyyən qurumları istifadə edir. Çox yüksək fəaliyyət tutumlu bu avadanlıq azı gündə 12, 16 saat işləməlidir. Fransadan mütəxəssislər gəlmişdi. Azərbaycan Tibb Universitetinin klinikalarında quraşdırılan avadanlıqlara baxıb dedilər ki, böyük vəsaitlə alınmış bu avadanlıqlardan siz gərək gün ərzində 24 saat istifadə edəsiniz".*

Ciddi elmi tədqiqatlara kölgə salmaq istəmədiyini vurğulayan bölmənin akademik-katibi Azərbaycan üçün aktual olan mövzuların seçilməsi zərurətindən danışdı. Qeyd etdi ki, əgər bu istiqamətdə islahatlar aparılmasa, akademiyanın bəzi institutlarının perspektivlərini yaxşı görmürəm. Akademiyanın institutlarında ixtisarlar aparılmalıdır. Elə institutlar var ki, bir qrant udmayıb. İmpakt faktoru olan jurnallarda dərc olunan məqalələrin 5-6 il əvvəllə müqayisədə xeyli artdığını müsbət qiymətləndirən Əhliman Əmiraslanov bəzi institutlarda bu göstəricinin hələ də aşağı olmasından təəssüfünü dilə gətirdi. Məqalələrə istinadların da əsas göstəricilərdən biri olduğunu deyən natiq Botanika İnstitunda akademik Cəlal Əliyevin rəhbərlik etdiyi bölmənin adını çəkərək bildirdi ki, buradakı elmi-tədqiqat işlərinə minlərlə istinadlar var.

Çıxışında beynəlxalq miqyaslı patentlərin alınması, elmi nəticələrin təcrübəyə tətbiqi məsələlərinə də toxunan akademik son dövrlərdə ayrı-ayrı institutların birgə tədqiqatlar aparmalarının təqdirəlayiq olduğunu diqqətə çatdırdı.

Bölmənin hesabat yığıncağında AMEA-nın vitse-prezidenti, akademik Tofiq Nağıyev də iştirak edirdi.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

*Baş redaktordan*

# 80 YAŞLI "TƏBİB"

**◆ Bakı Dövlət Universitetində bir fakültə kimi fəaliyyətə başlayan Tibb İnstitutu 1930-cu ildə ali müstəqil tədris müəssisəsi kimi işini davam etdirmişdir. Yeni yaradılmış bu tibbi təhsil ocağı bir sıra çətinliklərə baxmayaraq qısa vaxt ərzində inkişaf mərhələsinə qədəm qoya bilmişdir. O dövrdə 3 fakültənin və 10-dan artıq kafedranın açılması, Azərbaycan dilində dərsliklərin nəşri, milli dildə dərslərin təşkili yeni açılmış bu ali tibb məktəbinin işıqlı gələcəyindən, geniş inkişaf perspektivindən xəbər verirdi.**

İnstitutun sürətlə hərtərəfli inkişafına böyük əmək sərf etmiş görkəmli ictimai-siyasi dövlət xadimi Əziz Əliyev (1932-1938) instituta rəhbərlik etdiyi dövrdə Tibb İnstitutu şəhərciyinin əsasını qoymuş və bu gün 80 yaşını qeyd etdiyimiz "Təbib" qəzeti də böyük alimin şəxsi təşəbbüsü və qayğısı sayəsində həyata vəsiqə almışdır.

Əvvəllər institutda divar qəzeti şəklində buraxılan mətbu orqan 1933-cü ilin 16 dekabrında "Tibbi qadro uğrunda" adı altında rəsmi qaydada çap olunmağa başladı.

Görkəmli alim, böyük şəxsiyyət Əziz Əliyevin mətbuat sahəsindəki bu danılmaz xidməti institut əməkdaşları, eləcə də respublikanın bütün tibb işçiləri tərəfindən böyük rəğbətlə qarşılandı.

Onu da qeyd etmək lazımdır ki, qəzetin ilk saylarında dərc olunan yazıların müəllifləri əsasən qeyri millətlərin nümayəndələri idi.

Məhz bunlar da Əziz Əliyevin diqqətindən yayınmadı. Professor və müəllim heyətinin tərkibində milli kadrların azlığı narahatçılıq doğurmaya bilməzdi.




İnstitut rəhbərliyi bildirir ki, belə bir vəziyyətin dəyişməsi üçün qəzetin də üzərinə mühüm vəzifələr düşür. Nəşrə başlayan "Tibbi qadro uğrunda" qəzetinin adından da göründüyü kimi kadr məsələsi sahəsində qəzetin görəcəyi işlər çoxdur.

Bu dövrdə qəzetin səhifələrində institutun professorlarından Əziz Əliyevin, İ.Şirokoqovun, M.A.Topçubaşovun, Trubinin, Luqovun və başqalarının imzaları ilə tez-tez rastlaşırıq.

Qəzet 1937-ci ilin 20 noyabrından etibarən "Medisina qadırları uğurunda" adı altında öz fəaliyyətini davam etdirir. "Medisina qadırları uğurunda" qəzeti 1940-cı ilin mart ayından kiril əlifbası ilə nəşrə başlayır. 1941-ci ilin may ayına qədər 12-ci sayı işıq üzü görən qəzetin nəşri iyun ayında ikinci dünya müharibəsinin başlanması ilə əlaqədar dayandırılır. Bundan sonra müxtəlif fasilələrlə işıq üzü görən "Medisina qadrları uğrunda" qəzeti 1969-cu ildə "Tibb kadrları uğrunda" başlığı altında fəaliyyətini davam etdirir. Azərbaycan Tibb İnstitutunun bu qəzeti 1990-cı ilin sentyabr ayından "Təbib" adı ilə işıq üzü görməyə başlayır. 1995-1996-cı illərdə qəzetin fəaliyyəti zəifləyir, müvəqqəti olaraq nəşri dayandırılır.

Bu məsələyə diqqətlə yanaşan və böyük önəm verən Tibb Universitetinin rektoru akademik Əhliman Əmiraslanov qəzetin fəaliyyətini bərpa etmək üçün böyük təşəbbüs göstərdi. "Təbib" qəzeti 1997-ci ilin iyun ayından yeni redaksiyada nəşrə başladı. Demokratik yolla inkişaf edən Azərbaycanımızın mətbu orqanları sırasında "Təbib" qəzeti də fəaliyyətini davam etdirdi. Ayda iki dəfə işıq üzü görən "Təbib" qəzeti çox qısa zaman kəsiyində Tibb Universitetinin güzgüsü rolunu oynadı.

İldən-ilə sürətlə inkişaf etməkdə olan Azərbaycan Tibb Universitetinin ictimai həyatını işıqlandırmaqda, elmi yenilikləri, görkəmli alimlərin yubileylərini, dünya tibb elmində baş verən son məlumatları oxucularına çatdırmaqda qəzet ardıcıl iş aparmaqdadır. "Təbib"in səhifələrində görkəmli tibb alimlərinin həyat və fəaliyyəti, tibb təhsili və elminin nailiyyətləri, universitetimizin professor və müəllimlərinin iş təcrübəsi, respublikada səhiyyə sahəsində həyata keçirilən islahatlar mütəmadi işıqlandırılır.

Bu illər ərzində qəzet öz səhifələrində Böyük Elmi Şuranın iclaslarına, həkim məsləhətlərinə, xalq təbabətindən ibarət nümunələrə, tanınmış tibb alimlərinin müxtəlif xəstəliklərlə bağlı çıxışlarına xüsusi yer vermişdir. "Təbib" fəaliyyətini təkcə Tibb Universiteti ilə məhdudlaşdırmamış, Azərbaycan səhiyyəsi ilə bağlı aktual yazılara da daim yer ayırmışdır.

Biz "Təbib"in bu illərdə çapdan çıxmış bir neçə sayını vərəqləyirik. Burada inkişaf edib böyüməkdə olan universitet şəhərciyində aparılan tikinti-abadlıq işlərinin səviyyəsinə, yataqxanalarda tələbələrə göstərilən xidmətə qədər bilgilər əldə edirik.

Azərbaycan Tibb Universiteti respublikamızda əhalinin cansağlığının qorunmasında və səhiyyənin inkişafında böyük işlər görür. Universitetimizdə çalışan alimlərin səsi xarici ölkələrdə keçirilən konfranslardan, simpoziumlardan eşidilir. Bütün bunların əks-sədası "Təbib" qəzetində vaxtaşırı işıq üzü görür.

Qəzet müəllim və tələbələrlə mütəmadi əlaqə saxlamaqdadır. Demək olar ki, Həmkarlar İttifaqı Komitəsinin, Tələbə Həmkarlar İttifaqı Komitəsinin, TEC-in bütün tədbirləri "Təbib" qəzetində öz əksini tapmışdır. Eyni zamanda Respublikamızın tibb ictimaiyyətinin qabaqcıl nailiyyətləri, universitet əməkdaşlarının, eləcə də tələbə gənclərin fəaliyyətindən bəhs edən tədbirlər işıqlandırılmışdır.

Son zamanlarda Stomatoloji, Onkoloji, Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarının tikilib istifadəyə verilməsi yalnız Tibb Universitetinin deyil, bütövlükdə səhiyyəmizin böyük nailiyyətləridir. Bu möhtəşəm səhiyyə ocaqları haqqında ətraflı bilgiləri biz "Təbib"in səhifələrindən alırıq.

Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələri getdikcə inkişaf edir, sürətlə artır. Ayrı-ayrı ölkələrin tibb universitetlərindən universitetimizə işgüzar səfərə gələn mötəbər qonaqlar haqda zəngin məlumatlar verilir. Tibb Universitetinin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanovun qəbul etdiyi qonaqlarla oxucular yaxından tanış olur. Rektorun xarici universitetlərin nümayəndə heyətləri ilə yanaşı, Türkiyənin ölkəmizdəki səfiri Alper Coşkun, İranın ölkəmizdəki səfiri Möhsün Pak Ayin, İordaniyanın ölkəmizdəki səfiri Adel Mohammad Adileh və İraqın ölkəmizdəki səfiri Heydər Əlbarak ilə görüşlərinin təfərruatları da oxuculara çatdırılmışdır.

Demək olar ki, "Təbib" qəzeti yeni redaksiyada fəaliyyətə başlayandan bu günə kimi səhifələrində Tibb Universitetində keçirilən bütün tədbirlərə, əlamətdar hadisələrə, təhsil, tərbiyə, elmi işlər sahəsində qazanılan nailiyyətlərə geniş yer ayırmışdır. Son bir neçə ilin qəzet toplusunu vərəqlədikdə qarşımızda universitet dünyasının xoş bir mənzərəsi canlanır. Gələcək tədqiqatçılar üçün bu qəzetin nə qədər dəyərli və əhəmiyyətli olduğu aydın hiss olunur.

"Təbib" qəzeti son günlərə kimi cəmi dörd səhifə çıxırdı. Bu da yaradıcı heyətin müəyyən mənada imkanlarını məhdudlaşdırırdı. Bütün bunlar universitet rəhbərliyini də narahat etməyə bilməzdi. Artıq zamanın tələbi səviyyəsinə uyğun, Tibb Universitetinin inkişaf perspektivləri çərçivəsində daha da təkmilləşmiş bir qəzetə ehtiyac duyuldu.

Oxuculara bildirmək istərdik ki, 2014-cü ilin yanvar ayından etibarən "Təbib" qəzeti 8 səhifə həcmində rəngli şəkildə doğma oxucuları ilə görüşə gələcək.

Ümidvarıq ki, "Təbib" bundan sonra da Tibb Universitetinin elmi pedaqoji, ictimai həyatında və təlim-tərbiyə sahəsindəki uğurlarında mühüm rol oynayacaq, universitet həyatının salnaməsini yaradan bir mətbu orqan kimi öz işini müvəffəqiyyətlə davam etdirəcəkdir.

# Uşağı ürək xəstəliklərindən necə qorumalı?

**Bir çox xəstliklər kimi indi ürək xəstəlikləri də cavanlaşıb. Azərbaycanda uşaqlarda adətən hansı ürək xəstəlikləri müşahidə olunur, onların profilaktikası və müalicəsi necə olmalıdır? Valideynlər övladlarını vaxtında qorumaq üçün hansı əlamətlərə diqqət yetirməlidirlər?**

**Mövzu ilə bağlı bu və digər sualları tibb elmləri doktoru, professor, respublikanın əməkdar həkimi, əməkdar elm xadimi, ATU-nun Terapevtik və pediatrik propedevtika kafedrasının müdiri İbrahim İsayev cavablandırır.**



**❍ Azərbaycan Kardiorevmatoloqlar Assosiasiyasının üzvü İbrahim İsayev deyir ki, uşaqlarda ürək-damar xəstəliklərinin yaranma səbəbləri müxtəlif ola bilər.**

Əksər hallarda yeni doğulmuş uşaqlarda rast gəlinən anadangəlmə inkişaf anomaliyaları xromosom və gen mutasiyaları ilə əlaqədar olaraq genetik pozğunluqlar nəticəsində baş verir. Valideynlərin yaşının çox olması, hər hansı birində ürək-damar xəstəliklərinin mövcudluğu bu cür ehtimalları çoxaldır. Digər səbəblər qismində infeksion amili, yəni hamilə qadının xroniki və persistəedici virus xəstəlikləri (məxmərək, herpes, adenoviruslar, toksoplazma, mikoplazma, listerioz və s.) göstərmək olar. Uşaqlarda ürək-damar xəstəliklərinin əmələ gəlməsində fiziki (rentgen şüalanması, ionlaşdırıcı radiasiya, vibrasiya, elektromaqnit dalğaları və s.) və kimyəvi amillərin (alkoqol, narkotik maddələr, hamiləlik zamanı istifadə olunan dərmanlar və s.) rolu da az deyildir.

**-Uşaq yaşlarında adətən hansı ürək xəstəliklərinə rast gəlinir?**

-Uşaq yaşlarında rast gəlinən ürək-damar xəstəlikləri yaşdan asılı olaraq müxtəlif formada özünü büruzə verir. Belə ki, kiçik yaşlarda daha çox ürəyin anadangəlmə inkişaf anomaliyalarına, qüsurlarına və iltihabi xəstəliklərinə, məktəblilərdə isə aritmiyalara, vegetativ damar distoniyalarına, arterial hiper və hipotoniyalara təsadüf edilir.

Ürək qüsurlarından danışsaq, əhali arasında ürəyin anadangəlmə qüsurlarının tezliyi 1 faiz təşkil edir. Ürək qüsuru olan valideynin övladı da belə xəstəliklə doğula bilər. Əgər ana özü ürək qüsurlu olarsa, onun bu cür xəstəliyi olan uşaq dünyaya gətirməsi riski 14 faizdir. Əgər anada qulaqcıq-mədəcik qapaqlarının stenozu xəstəliyi varsa, onda onun övladı 23 faiz ehtimalla anadangəlmə ürək qüsurlu doğula bilər. Ürək qüsuru olan bir uşağa malik ailədə digər ürək qüsurlu uşağın doğulma riski 1-4 faizdir. Lakin 2 uşaq belə xəstəliklə doğularsa, ailədə artıq üçüncü ürək qüsurlu uşağın da doğulma riski artıq artır, 3-12 faiz olur.

**-Anadangəlmə ürək qüsuru olan xəstələrin müalicəsi necə olur?**

-Anadangəlmə ürək qüsuru olan uşaqların müalicəsi çox böyük səy və diqqət tələb edir. Belə ki, qüsurların yüngül, kompensə olunmuş variantlarında dərman müalicəsinin aparılması məsləhət görülür. Əksər hallarda anadangəlmə ürək qüsurlarının müalicəsi cərrahi yollarla aradan qaldırılır. Son illərdə bir sıra anadangəlmə ürək qüsurlarının müalicəsində invaziv üsullardan da geniş istifadə edilir. Bütün hallarda belə uşaqlar mütəmadi olaraq həkim-kardioloqun nəzarəti altında olmalıdır.

**-İrsiyyətində ürəyin işemik xəstəliyinə meyllilik olan uşaqlar arasında hansı müalicəvi və profilaktik tədbirlər aparmaq məsləhətdir?**

-Ailəsində ürəyin işemik xəstəliyinə meylli olan uşaqlarda əsas risk amillərinin inkişafının qarşısını almağa çalışmaq lazımdır. Profilaktik tədbirlər kimi gündəlik qida rasionuna diqqət yetirmək də vacibdir. 2 yaşına kimi uşaqlarda pəhrizə ehtiyac yoxdur. Amma sonrakı yaşlarda aterogen mənşəli (heyvani) yağların istifadəsindən çəkinmək lazımdır. Əslində, böyüməkdə olan uşağın rasionunda kifayət qədər yağ daxil edilməlidir ki, onun sinir inkişafı normal getsin. Lakin bu zaman rasiona əsasən bitki mənşəli yağlar, xüsusilə də doymamış yağ turşuları daxil edilməlidir.

**-Uşaqlarda kəskin miokardın infarktına rast gəlmək mümkündürmü?**

-Bəli, bunu EKQ və ExoKG ilə təsdiqləmək mümkündür. İş burasındadır ki, ürək əzələsinin morfoloji quruluşuna və miokardın qan damarları ilə zəngin olması ilə əlaqədar baş verməyən kəskin işemiya klinik olaraq özünü böyüklərdə olduğu kimi deyil, subklinik şəkildə büruzə verir.

**-Uşaqlarda ürək nahiyəsində eşidilən küylərin səbəbləri nədir?**

-Fizioloji olaraq ürək nahiyəsində küylər eşidilməməlidir. Küyün əmələ gəlməsi ürək boşluqları arasında patoloji birləşmələrin, ürək strukturlarının anatomik quruluş qüsurlarının, uyğunsuzluqlarının, magistral damarların yerdəyişmələrinin və diametrlərinin uyğunsuzluqlarının, kameralarda təzyiqlər fərqinin kəskin dəyişməsi, əlavə xordal strukturların olması, miokardın yığılma qabiliyyətinin zəifləməsi və s. nəticəsində baş verir.

**Günel ASLANOVA,**
*ATU-nun mətbuat katibi*

# Türkiyəli alimlər ATU- da seminar keçirmişlər

**Türkiyə Cumhuriyyətinin Ege universitetinin Tibb fakültəsinin tibb təhsili kafedrasının müdiri doktor professor Xalil İbrahim Durak və Kocaeli universitetinin Tibb fakültəsinin tibb təhsili kafedrasının müdiri doktor professor Levent Altıntaş dekabrın 2-dən 5-dək Azərbaycan Tibb Universitetində "Tədris proqramlarının layihələşdirilməsi, bacarıqların tədrisi və qiymətləndirilməsi" mövzusunda seminar keçirmişlər.**



Seminarda Azərbaycan Tibb Universitetinin tədris proqramlarında gələcəkdə planlaşdırılan dəyişikliklər , Tədris Cərrahiyyə Klinikasında yaradılan "Bacarıqlar" laboratoriyasının iş prinsipləri və bacarıqların qiymətləndirilməsi kimi məsələlər müzakirə olunmuşdur. Turkiyəli alimlər universitetimizin kliniki fənlərin tədrisi sahəsində çalışan müəllimlərə işlərini necə qurmaları üçün dəyərli məsləhətlər vermişdir .

Dörd gün davam edən seminarın işində universitetimizin bir qrup müəllimləri ilə yanaşı Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşları da iştirak etmişlər. Bundan başqa seminarda universitetin tədris- metodik innovasiya şöbəsinin müdiri, professor Akif Qurbanov , Səhiyyə nazirliyinin "Səhiyyə Sahəsində İslahatlar" layihəsinin kordinatoru Fariz Axundov və universitetin beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəhimə Qabulova da iştirak etmişlər.

Hörmətli qonaqları ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov qəbul edərək təhsil islahatları sahəsində onların əməkdaşlarımıza göstərdikləri bu köməkliyi yüksək qiymətləndirmiş və universitetdə planlaşdırılan islahatların aparılması üçün müvafiq göstərişlər vermişdir.

**M.ƏLƏKBƏRLI**

# Müasir informasiya cəmiyyəti və elektron kitabxana

**Respublikamızda kitabxana işinin inkişafı, onun müasir dünya standartlarına uyğun inkişaf etdirilməsi daim Respublika Prezidentinin diqqət mərkəzində olmuşdur. Elə 2007-ci ilin aprel ayının 20-də ölkə başçısının imzaladığı "Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncamı və 2008-ci il 6 oktyabr tarixli 3072 saylı Sərəncamı ilə qəbul olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" buna sübutdur. Dövlət Proqramı "informasiya cəmiyyəti", "biliklər cəmiyyəti" Azərbaycan modelinin qurulması prosesinə yardım göstərilməsini, elektron kataloq və elektron kitabxanaların yaradılması işinin təmin edilməsini, onların müasir standartlar səviyyəsinə çatdırılmasını, komputerləşdirilmiş kitabxana infrastrukturunun yaradılması, kitabxanaların yeni informasiya texnologiyaları ilə təchiz edilməsi və s. bu kimi bir çox problemlərin həllini qarşıya qoydu.**

Əsaslı kitabxanamız universitet rəhbərliyinin və şəxsən hörmətli rektorumuz akademik Əhliman Əmiraslanovun diqqət və qayğısını daim hiss edir. Məhz onun göstərişi ilə universitet kitabxanası müasir informasiya texnologiyaları ilə təchiz edilmiş, kitabxanamız müasir tələblərə cavab verən İRBİS-64 avtomatlaşdırılmış kitabxana-informasiya sistemi (AKİS) ilə təmin edilmişdir. İRBİS-64 AKİS-nin kitabxanamızda tətbiqinə 2010-cu ilin aprel ayından başlanılmışdır. Bu sistem kitabxanamızın beynəlxalq informasiya məkanına daxil olmasınının, dünya standartlarına uyğun elektron kitabxananın və elektron kataloqunun yaradılmasınının, təhsil və elmi tədqiqatlar üçün əsas amil olan və bütövlükdə cəmiyyətin inkişafına birbaşa təsir edən elektron mənbələrindən sərbəst istifadə olunmasının təminatçısıdır. Bu sistem imkan verir ki, biz öz zəngin kitab fondumuzu, həmçinin alimlərimizin elmi fəaliyyətlərinin nəticəsi olan kitab və jurnalları, məqalələri dünya istifadəçilərinə təqdim edək və eyni zamanda dünya kitabxanalarının zəngin kitab fondundan müəllim və tələbələrimizin istifadə etməsinə də şərait yaradaq.

Hazırda kitabxanamızda IRBİS-64 sisteminin "Komplekləşdirmə", "Kataloqlaşdırma", "Oxucu", "Kitab verilişi" və "Administrator" modulları üzrə fəal iş gedir. "Kataloqlaşdırma" modulu kitabxana fondunun elektron versiyasının, yeni elektron kataloqunun yaradılmasını həyata keçirir. Artıq tibbi ədəbiyyatın çox böyük bir hissəsi: 13 500 addan çox azərbaycan, türk, rus, ingilis dillərində olan kitablar elektron kataloquna daxil edilmişdir. Həmçinin 6018 qəzet məqaləsi və 9578 jurnal məqaləsi də elektron kataloqunda öz əksini tapmışdır. Qeyd edə bilərik ki, latın qrafikalı və kiril qrafikalı Azərbaycan dilində olan bütün ədəbiyyat, həmçinin Heydər Əliyev fondu tərəfindən kitabxanamıza hədiyyə edilmiş çoxlu sayda yeni tibbi ədəbiyyat, ulu öndərimiz Heydər Əliyevə və Prezident



İlham Əliyevə həsr edilmiş kitablar artıq elektron kataloqunda öz əksini tapmışdır. Eyni zamanda hörmətli rektorumuzun elmi fəaliyyətini əks etdirən kitablar, dərsliklər də artıq elektron kataloqa daxil edilmişdir. Bu kataloqda ən qədim kitab XIX əsrin əvvəllərində çap olunmuş kitabdır. Əməkdaşlarımız üzərlərinə düşən vəzifənin məsuliyyətini dərk edərək yüksək səviyyəli, elmin tələblərinə cavab verə biləcək və digər yaradılmış elektron kataloqlarına bir nümunə ola biləcək səviyyəyə malik elektron kataloqunun yaradılmasına çalışırlar. Çox böyük zəhmət, hərtərəfli bilik və diqqət tələb edən bu işin həyata keçirilməsi eyni zamanda paralel olaraq digər işlərin də görülməsini (məsələn, kitab fondunun yoxlanılmasını, onun inventar kitabı və ənənəvi kataloq ilə uyğunluğunun yoxlanılması, çatışmazlıqların üzə çıxarılaraq həll edilməsini) tələb edir. Bu isə işin daha yüksək səviyyədə, düzgün və dolğun görülməsinə təminat verir.

Elektron kataloq kitabxana fondunun "güzgüsüdür" desək səhv etmərik. Elektron kataloq vasitəsilə istifadəçilərə uzaq məsafədən operativ informasiya xidməti göstərmək, həmçinin fondun idarə olunmasını həyata keçirmək mümkündür. Elektron kataloq biblioqrafik informasiya bazasının daha etibarlı qorunmasına şərait yaradır və istifadəçinin ona zərər yetirməsini praktiki olaraq qeyri mümkün edir.

Kitabxananın İnternetdə yerləşdirilmiş elektron kataloqu dünyanın istənilən nöqtəsindən istifadəçiyə kitabxanamızın fondu ilə tanış olmağa, lazımi ədəbiyyat axtarışını aparmağa və tapılmış ədəbiyyatı sifariş etməyə, ədəbiyyatın elektron variantı olduqda isə onu əldə etməyə imkan verir. Universitet əməkdaşlarının elmi əsərlərinin, dərsliklərin, dərs vəsaitlərinin tammətnli elektron versiyalarını yaradaraq daha səmərəli elektron xidməti həyata keçirmək, kitabxanamızı ən qabaqcıl elmi informasiya mərkəzinə çevirmək də qarşımızda duran vacib işlərdəndir. Biz bütün fəaliyyətimizi və gücümüzü bu istiqamətə yönəldərək mühüm işlər görməyə çalışırıq.

Elektron kataloq kitabxanalararası biblioqrafik informasiya mübadiləsini təmin edir. Elektron kataloq həmçinin hər bir kitabxananın «imicini» formalaşdırır.

Kitabxananın yüksək nüfuza və reytinqə malik olması üçün elektron kataloq zəngin, dolğun məlumat bazasına və mükəmməl axtarış aparatına malik olmalıdır. Məhz bununla kitabxana coğrafi uzaqlıqdan, yerləşdiyi məkandan asılı olmayaraq özünə dünyanın istənilən yerindən istifadəçi cəlb edərək xidmət göstərə bilər.

Bu xidmət istifadəçi sifarişini uzaq məsafədən yerinə yetirməklə kitabxanalararası elektron sənəd mübadiləsini də təmin edir.

Elektron kitabxanalar müasir dövrün əsas tələbi olub, cəmiyyətin informasiyalaşdırılmasında, elmi-ədəbiyyatın təbliğində və əldə edilməsində mühüm rol oynayırlar. Elektron kitabxanalar informasiya mübadiləsi sistemlərinin, virtual informasiya mühitinin yaradılmasına, distan təhsilin inkişafına, cəmiyyətin peşə və ümumi mədəniyyət səviyyəsinin artmasına xidmət göstərir. Onun vasitəsilə oxucular dünyanın istənilən nöqtəsindən 24 saat müddətində kitabxananın informasiya bazasından istifadə edə bilirlər.

**Z.EMINOVA,**
*Əsaslı kitabxananın direktoru*
**G.QARAYEVA,**
*Elmi kitabişləmə və kataloqlaşdırma şöbəsinin müdiri*

**Dekabrın 11-də pediatriya fakültəsinin VI kurs tələbələrinin ənənəvi istehsalat müşavirəsi keçirilib. Müşavirəyə sədrlik edən fakültənin dekanı, dosent Nəriman Nağıyev bildirib ki, VI kursda imtahan sessiyası yoxdur. May ayının axırına yaxın dərslər qurtaracaq, dövlət attestasiyası, dövlət imtahanları başlayacaq. O, heç bir hazırlıq kursu keçmədən baza tibb təhsili diplomu ilə birbaşa praktiki səhiyyədə çalışmağın mümkünlüyünü deyib.**

# İSTEHSALAT MÜŞAVİRƏSİNDƏ

Bundan sonra fakültənin dekan müavini, professor Mehman Əliyev VI kursda cari mənimsəmə və dərsə davamiyyətin vəziyyəti barədə ətraflı məlumat verib, görülən tədbirlərə baxmayaraq kafedralarda dərs buraxma hallarının çoxaldığını söyləyib. 50 saatdan artıq dərs buraxan tələbələrin adlarını çəkərək 5-6 nəfəri çıxmaqla bütün tələbələrin dərs buraxdıqlarını qeyd edib. Dekanlığın rəsmi məktublarına bəzi kafedraların vaxtında cavab vermədiyini müşavirə iştirakçılarının diqqətinə çatdıran dekan müavini aparılan reydlərin, yoxlamaların nəticələrini də açıqlayıb.



Uşaq yoluxucu xəstəlikləri kafedrasının müdiri, professor Nərgiz Hüseynova, II uşaq xəstəlikləri kafedrasının müdiri, professor Amalya Əyyubova, neonatologiya kafedrasının müdiri, professor Səfixan Həsənov, I uşaq xəstəlikləri kafedrasının dosenti Sabir Əmirəliyev



müzakirə olunan problemlərin obyektiv və subyektiv səbəblərindən, eyni zamanda həlli yollarından danışıblar.

Bu dəfəki ənənəvi istehsalat müşavirəsində, belə demək mümkünsə, "ənənə" pozulub. Əvvəlcə danışmaq istəməyən tələbələr bir anın içində sükutu pozublar. "Ən yaxşı müdafiə hücumdur" prinsipinə söykənən $450^{c}$ qrup tələbəsi Kamran Ələkbərzadə tələbələrin ünvanına yönəlmiş nöqsanların səmtini dəyişərək müəllimləri yaxşı dərs keçməməkdə, köhnə metodlarla işləməkdə günahlandırıb.

Tələbə həmkarının sözünə qüvvət verən $441^{b}$ qrup tələbəsi Günel Vəzirova da dərsə davamiyyətin aşağı olmasını dərslərin maraqsız olması ilə əlaqələndirib: "Biz bəzi müəllimlərin dərslərində ona görə otururuq ki, nəsə öyrənirik. Heç nə öyrətməyən müəllimlərin cansıxıcı dərslərində isə ona görə otururuq ki, bizə qayıb yazmasınlar".

Sonda fakültənin dekanı Nəriman Nağıyev səslənən tənqidlərin reallığı əks etdirdiyini vurğulayıb, lakin əsaslı-əsassız bəhanələr gətirərək tələbələrin dərsdən yayınmasına da haqq qazandırmayıb. Müşavirədə narahatlıq doğuran digər məsələlərlə bağlı da fikir mübadiləsi aparılıb.

**A.KAMRANOĞLU**

## Etibarsız sayılır

Ələsgərov Hidayət İsaq oğluna 1982-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən verilmiş diplom və internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Həsənov Bəxtiyar Həsən oğluna 1992-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

II müalicə profilaktika fakültəsinin II kurs, $307^{b}$ qrup tələbəsi Əliyeva Nisə Babək qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə profilaktika fakültəsinin II kurs, $305^{a}$ qrup tələbəsi Nəsirov Nicat Elşad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə profilaktika fakültəsinin II kurs, $300^{b}$ qrup tələbəsi Bayramov Şamxal Hafiz oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 109